# Ştefan Svayqın "Seçilmiş əsərləri" nəşr olundu




Dövlət Tərcümə Mərkəzinin 150 cildlik "Dünya ədəbiyyatı inciləri" seriyasından növbəti cild - dünya şöhrətli Avstriya yazıçısı Ştefan Svayqın "Seçilmiş əsərləri" kitabı nəşr olunub.

Kitaba yazıçının "Yad qadının məktubu", "Dayə", "Dəhşətli sirr", "Amok", "Qorxu", "Ay işığında küçə", "Bir qadının həyatından iyirmi dörd saat" hekayələri, "Bəşəriyyətin bəxt ulduzları", "Jozef Fuşe. Siyasi xadimin portreti" kimi məşhur miniatürləri və tanınmış alman dili tərcüməçisi Vilayət Hacıyevin yazıçının həyatı və yaradıcılığı haqqında qələmə aldığı "Stefan Svayq - "Böyük avropalı" yazısı daxil edilib.

Əsərlərin tərcümə müəllifləri - tanınmış bədii tərcümə ustaları Vilayət Hacıyev, Çərkəz Qurbanlı, Zahid Məmmədov, Nəriman Əbdülrəhmanlı, Həmid Arzulu, Qabil Əhmədovdur.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 24 sentyabr.- S. 32.